2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli, 20 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 26 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Lerik rayonu Bürsülüm kənd sakinləri Əliyev Təyyar Tərlan oğlu və digərlərinin 78 saylı Lerik seçki dairəsi üzrə Bürsülüm bələdiyyəsinə keçirilən seçkilərdə həmin seçki dairəsinin 75, 76, 77 saylı seçki məntəqələrində səsvermə günü məntəqə seçki komissiyası sədrlərinin saxtakarlığa yol verdiklərini iddia etmiş və həmin seçki məntəqələrinin nəticələrini ləğv edilməsi ilə bağlı Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli, 20 saylı müraciətini nəzərdən keçirərək müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən müvafiq rəy verilməsi üçün tərəfimdən icraata qəbul edilmişdir.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Lerik rayonu Bürsülüm kənd sakinləri Əliyev Təyyar Tərlan oğlunun və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 20

saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 78 saylı Lerik seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov